Ədəbiyyat qəzeti

9 yanvar / 2021

Abbas İLHAM

# *Ağlama, Şuşam, ağlama*

*28 ildən sonra Şuşamız
azan səsi eşitdi...*

Şuşada bir səs çağladı...
Bu səsə daş da ağladı.
Azanın kövrək səsinə
Gözlərdə yaş da ağladı...
Ağlama, Şuşam, ağlama!

Eşq olsun ər oğullara,
Damğa vurdu yağılara.
Bütün dünya artıq gülür
"Hay" danışan nağıllara...
Ağlama, Şuşam, ağlama!

Darıxıbdır Cıdır düzü,
"Halay" getsin oğlu-qızı.
Sevincdən sellənir yəqin,
İsa bulağının gözü...
Ağlama, Şuşam, ağlama!

Küsməsin xarıbülbülün,
Küsməsin gülün, sünbülün.
Çiçəklənən yaz gələcək,
Oxuyar yenə bülbülün...
Ağlama, Şuşam, ağlama!

Son qoyuldu bu həsrətə,
Bu zülümə, bu zillətə.
Qalib gəldi Haqq nahaqqa -
Dönərsən yenə cənnətə!..
Ağlama, Şuşam, ağlama.